**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 18**

**Bakı şəhəri** **28 dekabr 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Səbinə Məzahir qızı Məmmədovanın Dövlət Statistika Komitəsi aparatının İnformasiya texnologiyaları şöbəsinin Məlumat bazalarının idarə olunması və tətbiqi proqram təminatı sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il dekabr ayının 08-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Məmmədova Səbinə Məzahir qızı Dövlət Statistika Komitəsi aparatının İnformasiya texnologiyaları şöbəsinin Məlumat bazalarının idarə olunması və tətbiqi proqram təminatı sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il sentyabr ayının 06-da elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il dekabr ayının 08-də Dövlət Statistika Komitəsinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Çimnaz Əliyeva, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Gülmirə İsayeva və müstəqil ekspert Ruslan Məmmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədova Səbinə Məzahir qızına müsahibə komissiyasının üzvlərindən G.İsayeva və R.Məmmədov 15 bal, Ç.Əliyeva 16 bal vermiş və nəticədə iştirakçı 15,3 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 09.12.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Məmmədova Səbinə Məzahir qızının 09 dekabr 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsi aparatının İnformasiya texnologiyaları şöbəsinin Məlumat bazalarının idarə olunması və tətbiqi proqram təminatı sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il dekabr ayının 08-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: